# Psixologiyada peşəkar "Mən-obraz"ının tədqiqi

**Satibə Fəhratlı**
ADU-nun müəllimi

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** «Mən-obraz», «Mən–конsepsiya», peşəkarözünüdərketmə, aktual "Mən", ideal "Mən", refleksiv "Mən", özünüdərketmə tələbatı

**Ключевые слова:** «Я-образ», «Я-концепция», профессиональная самооценка, актуальный "Я", идеальный"Я", рефлексивный"Я", требование самоактуализации

**Key words:** "I image", "I concepts", professional self-actualization, actual "I", ideal "I", reflexive "I", self-motivation

Psixologiyada «Mən-obraz»ı problemi müxtəlif aspektlərdən işlənilmişdır. Müxtəlif psixoloji məktəblərdə «Mən-obraz»ı problemi şəxsiyyət aspektində nəzərdən keçirilmiş, şəxsiyyət kimi formalaşmanın əsasında özünüdərketmənin dayandığı dəfələrlə vurğulanmışdır. Özünüdərketmə çox mühüm fəlsəfi və psixoloji problemlər sırasına daxil olub, müxtəlif məsələlərin öyrənilməsi ilə bağlıdır. Bu cəhətdən özünüqiymətləndirmə, özünənəzarət şəxsiyyətin müəyyənləşdirilməsi, «Mən – obraz»ının dərk edilməsi kimi məsələləri ayrıca qeyd etmək lazımdır. Psixoloji ədəbiyyatda «Mən – obraz»ının dəqiq eкvivalentləri mövcuddur. Fərdin özünüdərketməsi, özünüqavramasına həsr olunmuş tədqiqatlarda müəlliflər müxtəlif anlayışlar sistemindən istifadə edirlər. Bir çox psixoloji ədəbiyyatda həmin anlayış həm də «mənlik şüuru», «Mən – конsepsiya»sı, özünüdərketmə kimi işlənir. Bəzən də «özünüdərketmə», «mənlik şüuru», «Mən – конsepsiya»sı, «Mən – obraz»ı anlayışları ilə yanaşı işlədilir. Bunlar eyni anlayış hesab olunur və bu anlayışların birlikdə işlədilməsi fikir ayrılıgı yaratmır. Məhz bu anlayışlar tədqiqatın əsas anlayışı hesab olunur. «Mən – obraz»ı ilə bağlı məsələlərin araşdırılmasına həsr edilmiş tədqiqat işlərini bir neçə istiqamətdə qruplaşdırmaq olar. Belə tədqiqatların ilk növbədə məkan münasibətlərinə görə qruplaşdırılması məqsədəuyğundur. Bu qruplara daxildir: 1) Xarici ölkə psixoloqlarının tədqiqatları; 2) MDB ölkələrinin psixoloqlarinin tədqiqatları; 3) Respublikamızın psixoloqlarının apardığı tədqiqatlar.

Xarici ölkələrin psixoloqlarından Z.Freyd, K.Levin, A.Bandura, C.Rotter, C.Kelli, A.Maslou, Q.Ollport, R.Kettel, H.Ayzenk, K.Rocers və b. peşə fəaliyyətində özünüdərketməyə şəxsiyyətin özünü yaratmasının tərkib hissəsi kimi yanaşmışlar. Amerika psixoloqu C.Mid "Mən"in strukturunda iki "Mən"i - fərdi "Mən"i və sosial "Mən"i fərqləndirirdi. Müəllifin fikrincə, "Mən" mahiyyətcə bu iki vəzifədən qaynaqlanan sosial prosesdir. C.Mid müəyyənləşdirmişdir ki, insan ancaq başqa adamın mövqeyində dayananda özünü "Mən" kimi dərk edə bilir. O ancaq bu yolla mənlik şüuruna yiyələnir.

R.Bernsin nəzəriyyəsində "Mən-obraz" kateqoriyası "Mən-konsepsiya" vasitəsilə açıqlanır, bu nəzəriyyəyə görə "Mən-obraz" şəxsiyyətin özünə istiqamətlənmiş yönəlişliklər sistemidir. Onun fikrincə, peşəkar özünüdərketmə dörd müxtəlif elementdən ibarətdir:

1. Özünü peşəkar kimi indiki zamanda qiymətləndirmək - aktual Mən;
2. İşin başlanğıc mərhələsinə münasibətdə özünü peşəkar kimi qiymətləndirmək – retrospektiv Mən;
3. Peşəkar necə olmaq istərdi - ideal Mən;

4.Peşəkarlıq baxımından başqaları onu necə qiymətləndirir - refleksiv Mən.

Rus psixoloqları B.F.Lomov, A.N.Leontyev, D.İ.Feldşteyn, V.Frankl, A.V.Bruşlinski, O.A.Konopkin və b. görə, özünüdərklə bağlı məsələlərin özünəməxsus problemləri var. Həmin problemlər inkişafın spesifik qanunauyğunluqları, şüurlu, məqsədyönlü fəaliyyətin formalaşması, real və xəyali obyektlərlə əməliyyat bacarığının yaranması, subyektin daxili mövqeyinin möhkəmlənməsi və s. kimi mühüm məsələləri əhatə edir. Bununla yanaşı İ.S.Kon, V.V.Stolin, E.V.Subbotski, Q.A.Sukerman, M.B.Mastrov, O.L.Konopkin, L.B.Şneyder, E.A.Klimov, R.V.Cabbarov, A.O.Şarapov, S.Q.Şvarskop, D.B.Qlazkov, N.İ.Qutkina və b. özünüdərkin mexanizmlərini tədqiq etmiş, özünüdərkin yol və vasitələrini göstərmişlər. Özünüdərkin formalaşması digər şəxsiyyət komponentləri: xarakter, fərdi yönümlər, meyllər, dünyagörüş və mənlik şüurun və təfəkkür tərzi ilə birgə gedir. S.L.Rubinşteynə görə, dərketmə prosesi fəaliyyət prosesində üzə çıxır, çünki praktik şüur ictimai varlıq kimidir. O, əxlaqi şüurun ən yüksək təzahürlərindəndir.

Azərbaycan psixoloqlarından Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, B.H.Əliyev, R.H.Qədirova, K.R.Əliyeva, R.V.Cabbarov, R.İ.Əliyev, İ.Ə.Məmmədov, A.Ə.Quliyev, M.H.Mustafayev, S.M.Məcidova, L.Ş.Əmrahlı və başqaları öz tədqiqatlarında “Mən-obraz”ın, özünüdərkin formalaşması istiqamətləri və məktəbə psixoloji xidmətin təşkilində psixloqların özünü peşəkar kimi dərki məsələləri diqqət mərkəzinə gətirlimişdir. S.M. Məcidova özünüdərketməyə - şəxsiyyətin “fiziki, sosial və ideal dünyada yerini dərk etməsi prosesi” kimi baxır. O, “Sosial-psixoloji tiplər “69” adlı tədqiqat işində özünüdərketməni şəxsiyyətin başlıca komponenti kimi səciyyələndirərək şəxsiyyətin mahiyyətini onunla əlaqələndirir. Tədqiqatlarda qeyd olunur ki, peşəkar kimi özünüdərketmə subyektin öz imkan və qabiliyyətlərinin dərk olunmasına (vərdiş, bacarıq, fəaliyyət təcrübəsi, ünsiyyət mədəniyyəti, koqnitiv səriştələr və s.) zəmin yaradan xüsusi dərketmə sistemidir. İnsan fərdiyyətinin digər canlılardan fərqi onun özünüdərketmə tələbatına malik olmasıdır. O, dərketmə tələbatı ilə doğulur. Məhz dərketmə tələbatı və marağı sayəsində insan qədim dövrlərdən başlayaraq bir sıra elmləri (fəlsəfə, təbiətşünaslıq, astronomiya, təbabət, biologiya, fizika v ə b.) yaradıb, öz varlığının mahiyyətini anlamaq üçün onları inkişaf etdirib. Bir sözlə, psixologiya elmi yarandığı gündən dərketmə və özünüdərketmə proseslərinin aydınlaşdırılması ilə məşğuldur.

Gənc müəllimlərdə peşə identifikasiyasının və peşə “mən obraz”ının formalaşmasında pedaqoji təcrübənin çox böyük rolu var. Yeni texnologiyaların inkişaf etdiyi müasir şəraitdə hər şeydən əvvəl yüksək ixtisaslı mütəxəssislərin hazırlığının təminatı məsələsi ön planda durur. Bu problemin həllində böyük rolu müəllimlər oynayırlar. Bununla əlaqədar olaraq müəllimin keyfiyyətli hazırlığı pedaqoji peşə təhsili sisteminin prioritet məsələlərindən biridir. Gələcək müəllimlərin hazırlığı sistemində pedaqoji təcrübə onların peşəkar formalaşmasının əsas formalarından biridir. Bu zaman nəzəri biliklərlə praktik təcrübə sintezləşdirilir. K.D. Uşinski yazırdı: "Tədris metodunu kitabdan və ya müəllimin sözlərindən öyrənmək olar, amma bu metoddan istifadə bacarığını yalnız uzunmüddətli və davamlı təcrübəylə əldə etmək olar". Pedaqoji fəaliyyətlə yiyələnmə və ona hazırlığın formalaşması yalnız qarşılıqlı formada gələcək pedaqoqun nəzəri və praktik hazırlığının qarşılıqlı vəhdəti zamanı mümkündür: peşəkar bilik və bacarıqları yalnız auditoriyalarda formalaşdırmaq olmaz.

Pedaqoji təcrübə keçən zamanı tələbə özü üçün nə qədər düzgün fəaliyyət sferasını seçdiyini müəyyən edə bilər və gələcək peşəsi ilə öz şəxsi keyfiyyətlərin əlaqələndirə bilər. Məhz fəal, uzunmüddətli təcrübə prosesində gələcək müəllimin artıq mənimsədiyi biliklərin və hələ öyrənilməsi lazım olan məsələlərin arasında ziddiyyətlər aydınlaşdırılır. Təcrübədə tələbələrin pedaqoji fəaliyyəti məzmunlu mövcud materiallar əsasında təkmilləşir, hansı ki,

onların aldıqları nəzəri biliklər və həmin biliklərin səmərəli mənimsəməsi yalnız canlı təəssüratların və müşahidələrin fonunda mümkündür. Təcrübə real təbii pedaqoji proses şəraitində metodik refleksiyanı formalaşdırmağa da kömək edir. Bu zaman müəllim üçün lazımi vasitələr və şəxsi pedaqoji fəaliyyət metodları, pedaqoji qərarların hazırlanması və qəbul edilməsi prosesi onun düşüncələrinin predmeti olur,

Öz şəxsi fəaliyyətinin analizi təcrübəçi müəllimə iş prosesində yaranan çətinlikləri dərk etməyə və onların öhdəsindən gəlməyin daha mükəmməl yollarını axtarıb tapmağa kömək edir.

**Məqalənin aktuallığı.** Psixologiyada peşəkar "Mən-obraz"ının tədqiqi prosesində peşəkar özünüdərketmənin müxtəlif elementlərinin müəyyənləşdirilməsi və nəzərə alınması mühüm şərtlərdəndir.

**Məqalənin elmi yeniliyi.** "Mən-obraz" kateqoriyası "Mən-konsepsiya" vasitəsilə açıqlanır, bu nəzəriyyəyə görə "Mən-obraz" şəxsiyyətin özünə istiqamətlənmiş yönəlişliklər sistemidir. Bu baxımdan mövzunun işlənməsi elmdə yüksək dəyərləndirilməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən müəllimlər, eləcə də tələbəvə magistrantlar da istifadə edə bilər.

## Ədəbiyyat

1. Клевцова В.А. Я-образ в профессиональном самоопределении личности // Современные наукоемкие технологии, 2008, № 1.
2. Меджидова С.М. Психологические типы. Типология «69». Ваку, 2001.
3. Столин В.В. Самосознание личности. М.: МГУ, 1983.

**С. Фахратлы**

## Исследование профессионального «Я - образа» в психологии

## Резюме

Мы считаем, что исследование проблемы формирования адекватной профессиональной самооценки и определение наиболее полного перечня педагогических условий ее формирования должно быть изучено и отражено в современной психолого-педагогической науке.

**S. Fahratlı**

## İnvestigating professional "I - image" in psychology

## Summary

We believe that the study of the problem of the formation of an adequate professional self-assessment and the determination of the most complete list of pedagogical conditions for its formation should be studied and reflected in modern psychological and pedagogical science.

**Redaksiyaya daxil olub:** 05.11.2018